**“İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ” QSC-nin**

# QİYMƏTLƏNDİRMƏ VƏ MÜKAFATLANDIRMA SİYASƏTİNİN ƏSAS PRİNSİPLƏRİ

Əsas məqsədi qiymətləndirmə və mükafatlandırma sisteminin formalaşdırılması və tənzimlənməsi olan "İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC-nin (bundan sonra – Cəmiyyət) "Qiymətləndirmə və Mükafatlandırma Siyasəti" (bundan sonra – Siyasət) proaktiv kadr hazırlığı siyasətinin əsasını təşkil edir və Cəmiyyətin strateji planına əsaslanaraq insan kapitalının inkişafını dəstəkləmək üçün rəqabətcil və ədalətli əmək haqqı siyasətini tətbiq edir.

**İşçi heyətinin mükafatlandırılmasında Cəmiyyətin rəhbər tutduğu əsas prinsipləri aşağıdakı kimidir:**

1. Cəmiyyətin strateji hədəflərə nail olmasına yönəldilməsi;
2. Cəmiyyətin uzunmüddətli fəaliyyət nəticələrinə və mənfəətliliyinə əsaslanması;
3. Cəmiyyətin risk iştahasına adekvat olması və izafi risk qəbulunu məhdudlaşdırması;
4. Cəmiyyət tərəfindən üzərinə uzunmüddətli risklərin götürülməsi hesabına qısamüddətli dövrdə gəlir əldə etməsinə təşviq etməməsi;
5. Maraqlar münaqişəsinə yol verməməsi;
6. Cəmiyyətin kapital adekvatlığının pisləşməsinə yol verməməli və uzunmüddətli dövrdə kapital dayanıqlığına mənfi təsir etməməsi;
7. **"Adekvatlıq"** – qanunvericiliyə, qabaqcıl beynəlxalq təcrübəyə və Cəmiyyətin strategiyasına adekvat olması;
8. **"Ədalətlilik"** - dəqiq ölçülmüş meyarlar əsasında obyektiv qiymətləndirmə ilə İşçinin əməyinin ədalətli ödənişi. Ödənişlərinin müəyyən edilməsində hər hansı bir diskriminasiyaya yol verilməməsi;
9. **"Balanslaşma"** - bütün növ mükafatların əsaslandırılmış və nəticəyə əsaslanan ödəniş balansı yaratmağa, həm fərdi, həm də kollektiv əməyi stimullaşdırmağa yönəlməsi;
10. **"Səmərəlilik"** - mükafatlandırmaya yönəldilən xərclərin Cəmiyyət üçün adekvat səmərə gətirməsi;
11. **"Uyğunluq"** - Mükafatlandırma sisteminin əmək bazarı səviyyəsinə uyğunluğu;
12. **"Şəffaflıq"** – Mükafatlandırma siyasəti ilə bağlı məlumatların həm işçilərə, həm də ictimaiyyətə açıqlanması.